# DÜNYA ŞÖHRƏTLİ SİYASƏTÇİ, BƏNZƏRSİZ ŞƏXSİYYƏT

**Tarix yalnız böyük şəxsiyyətlərin böyük əməlləri sayəsində yadda qalır. Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan şəxsiyyətlər, görkəmli siyasət və dövlət xadimləri çox olmuşdur. Belə tarixi şəxsiyyətlərdən biri iyirminci yüzilliyin üçdə biri qədər ölkəmizi idarə edən milli lider vəzifəsini daşıyan, dünya miqyaslı siyasətçi Heydər Əliyevdir. Nadir, təkrarsız şəxsiyyət, millətinin və məmləkətinin yeni tarixinin memarı, böyük dühadır, dünyanın hörmət göstərdiyi, güclü və müstəqil, istiqlalı dönməz, gündən-günə qüdrətlənən çağdaş Azərbaycanın qurucusudur. Heydər Əliyev özünün nəhəng fəaliyyəti və parlaq əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunmuşdur.**

Millət, Vətən və dövlət qarşısındakı misilsiz xidmətləri ilə adını tarixə qızıl hərflərlə yazdırmağı bacaran dahi şəxsiyyət - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz və unudulmaz xatirəsi hər zaman qədirbilən millətimiz tərəfindən böyük ehtiramla yad edilir, bu böyük insanın doğum günü hər il olduğu kimi, bu il də həm ölkəmizdə, həm də dünyanın müxtəlif ölkələrində xüsusi təntənə ilə qeyd olunur. Azərbaycançılıq məfkurəsinin və milli özünüdərk prosesinin banisi, ölkəmizin siyasi və iqtisadi sisteminin qurucusu, müstəqil Azərbaycan dövlətinin müəllifi və memarı olan ulu öndər Heydər Əliyev millətimiz və dövlətimiz üçün elə nəhəng işlər görmüşdür ki, bu barədə nə qədər danışılsa da, onun titanik fəaliyyətini tam əhatə etmək mümkünsüzdür. Tarixə nəzər saldıqda aydın görünür ki, istənilən xalqın müəyyən əlverişli situasiyada milli-etnik soykökünə qayıdışı, tarix boyu əxz etdiyi milli-mənəvi dəyərlər və təfəkkür tərzi sisteminə söykənən özünəməxsusluğunu bərpa və bəyan etməsi əsasən lider fenomeninin fövqəladə missiyası ilə şərtlənir. Hər bir xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli ideologiya da böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında reallaşır. Azərbaycan xalqı ilə bağlı bu şərəfli missiyanı məhz ümummilli lider Heydər Əliyev həyata keçirmişdir.

Ümummilli liderin xidmətləri və keçdiyi ömür yolu haqqında çox deyilsə də, əsrlər boyu bu mövzuya müraciət olunacaq və onun zəngin irsi həmişə dərin, əhatəli, ətraflı elmi əsaslarla öyrənilərək gələcək nəsillərə çatdırılacaqdır. Ulu öndər qısa müddətdə Azərbaycan xalqının, Azərbaycan torpağının adını bütün dünyada uca zirvələrə qaldırmışdır. Buna görə də əminliklə deyə bilərik ki, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - azərbaycanlı kimi əbədi həkk olunub, əsrlər boyu qalacaq və hər zaman dərin hörmətlə, ehtiramla anılacaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin mənalı həyat yolu bütün ömrü boyu azərbaycançılıq ideyasına yenilməz sədaqəti, vətənini, xalqını sevən hər kəs üçün canlı örnəkdir, parlaq nümunədir. Ulu öndər Moskvaya dəvət alıb SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunanda qəlbimiz qürurla döyünürdü. Çünki bir azərbaycanlı oğlu dünyanın fövqəlgüc mərkəzi hesab edilən SSRİ-nin ürəyində, Kremldə Sovet İttifaqı kimi böyük və qüdrətli bir dövlətə rəhbərlik edən şəxslər sırasında idi. Bu, hər bir azərbaycanlı üçün son dərəcə qürurverici idi. Şübhəsiz ki, o hissləri yüz minlərlə, milyonlarla azərbaycanlı yaşayıb. Heydər Əliyev harada olmağından, hansı vəzifədə çalışmağından asılı olmayaraq, hər zaman doğma xalqını düşünür, Azərbaycanla nəfəs alırdı. Azərbaycanın ərazi bütövlüyü, dövlət müstəqilliyi onun siyasi və ictimai fəaliyyətinin əsas istiqaməti olaraq hər zaman dəyişməz qalırdı.

Fenomen şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün mərhələlərində dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidda hökm sürən rüşvətxorluğa qarşı qəti və prinsipial mübarizəyə başladı və qısa müddətdə bunun müsbət nəticələri öz bəhrəsini verdi. Azərbaycanda möhkəm nizam-intizam, qayda-qanun yaradıldı. Yeni-yeni sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi, aqrar sənaye komplekslərinin yaradılması, şəhərlərin, rayon mərkəzlərinin, qəsəbələrin və kəndlərin simasının günbəgün dəyişməsi dahi şəxsiyyətin zəhmətinin bəhrəsi idi. Həmin illər Azərbaycanın tarixində böyük abadlıq və quruculuq dövrü kimi yadda qalacaqdır. O dövrdə yaradılmış güclü sosial-iqtisadi baza və intellektual potensial bugünkü müstəqil Azərbaycan üçün etibarlı bünövrəyə çevrilmişdir. Onun qayğısı və təşəbbüsü ilə ölkəmizdən kənarda nüfuzlu təhsil ocaqlarında oxumuş milli kadrlar bu gün respublikamızın inkişafında həlledici rol oynayırlar. O illər Azərbaycanın tərəqqiyə dönüşü, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüşünün başlanğıcı oldu. Bütün sahələrdə diqqətəlayiq nailiyyətlərin əldə edilməsi sözügedən dövrdə Azərbaycanın inkişafında keyfiyyətcə yeni mərhələ idi.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində özünün müstəsna əhəmiyyəti, sanbalı, xalqımızın nəinki bu günü, həm də gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev epoxası bənzərsizdir. Bu epoxanın hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir ki, onun da hər bir səhifəsi, hər bir sətri ulu öndərimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılıb. Bu mərhələləri təhlil etməzdən öncə, belə bir aspekti önə çəkmək vacibdir ki, Azərbaycanın və böyük türk dünyasının müdrik lideri Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti etibarilə ölkəmizin hüdudlarından çox-çox kənara çıxaraq öz zəngin məna tutumu ilə bəşəri zirvəyə yüksəlib. Ulu öndərimiz zamanı qabaqlayan, onun fövqündə dayanan elə dahi şəxsiyyətdir ki, o yalnız öz dövrü üçün yaşamayıb, yalnız öz dövrünün qayğıları ilə məşğul olmayıb. Azərbaycanı bəşəriyyətin beşiyi olan ölkələrdən biri, xalqımızı isə nadir bir irsin övladları adlandıran Heydər Əliyevin ən böyük xidmətlərindən biri də məhz Azərbaycanın tarixi keçmişini bərpa etməsi, milli-mənəvi irsimizin dəyərlərini özümüzə qaytarması, milli adət-ənənələrimizi yaşatmasıdır. Azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin hər cür buxovlardan azad olunaraq öz həqiqi təsdiqini tapması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularımızın real siyasi amilə çevrilməsinə nail olmasıdır.

Müstəqil dövlət qurmaq xoşbəxtliyi yalnız öz içərisində güclü şəxsiyyət, qüdrətli lider yetişdirmiş xalqlara nəsib olur. Bu, tarixin sınağından çıxmış gerçəklikdir. Xalqı vahid milli ideya ətrafında birləşdirməyi bacaran lider onu öz müqəddəs arzularına qovuşdurmağa qadirdir. Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət və alternativsiz milli lider kimi XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdi Azərbaycanı bəlalardan qorudu, onun suverenliyini qoruyub saxlaya bildi.

Azərbaycanın bir dövlət kimi mövcudiyyəti şübhə altına düşmüşdü. Elə bir xaos, özbaşınalıq şəraiti yaranmışdı ki, bundan baş çıxarmaq hər kəsin işi deyildi, yaxın gələcəkdə respublikada sabitliyin bərpa olunacağına bütün dünya şübhə ilə yanaşırdı. Problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yegane qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi. Çünki xalq hələ 1969-cu ildə hakimiyyətə gələndən sonra Heydər Əliyevin nəyə qadir olduğunu görmüşdü.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır. Ulu öndərin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və nin gerçəkləşdiyi Azərbaycana yönəlib. Təkcə biz yox, bütün dünya bilir ki, "Əsrin müqaviləsi"nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik neft kəmərinin reallaşması Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına qeyri-mümkün kimi görünən layihələri yalnız ulu öndərimizin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində reallaşdırmaq mümkün olub. Dünyanın məşhur siyasətçiləri, dövlət xadimləri Heydər Əliyevi siyasət nəhəngi, siyasət şahmatının mahir ustası adlandırırlar. O, tarixi perspektivləri qabaqcadan görmüş, ən çətin məqamlardan yeganə düzgün qərarlar qəbul etmək bacarığı ilə çoxlarını heyran qoymuşdur.

Ümummilli liderimizin gərgin əməyi sayəsində 1994-cü ilədək davam edən iqtisadi tənəzzülə son qoyuldu. Makroiqtisadi göstəricilər ilbəil yüksəldi. Dinamik inkişaf dövrü başlandı. Azərbaycan dövlət müstəqilliyinin möhkəmləndirilməsində milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun istifadə olunmasında ümummilli liderimiz Heydər Əliyevin uğurlu neft strategiyası olduqca xüsusi əhəmiyyət kəsb edir. 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin inşa olunmasına dair bağlanmış saziş Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynadı.

Böyük öndərimizin titanik fəaliyyətinin digər mühüm nəticəsi Azərbaycanın beynəlxalq aləmdə özünə layiqli yer tutması, dünyanın inkişaf etmiş dövlətləri ilə səmərəli əlaqələr çərçivəsində bərabərhüquqlu əməkdaşlığa nail olmasıdır. Ardıcıl, düşünülmüş xarici siyasət kursu Azərbaycan dövlətinə demokratik dəyərləri hər şeydən uca tutan, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quran, qonşuları ilə dinc şəraitdə yaşamağa üstünlük verən sülhsevər ölkə imicini qazandırmışdır. Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən tükənməz təbii sərvətləri, iqtisadi imkanları ilə yanaşı, mədəni, elmi, intellektual, yaradıcı potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində ölkəmizin dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar.

Azərbaycanda bu gün ümummilli liderimizin ideyaları nəinki yaşayır, hətta daha geniş şəkildə həyata keçirilir. Böyük öndərimizin başladığı, lakin axıra çatdıra bilmədiyi işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin rəhbərinin bu gün dünya miqyasında qazandığı böyük nüfuz, nəhəng dövlətlərin başçıları ilə bərabərhüquqlu tərəfdaş kimi danışıqlar aparması, xalqımızın həqiqətlərini uca səslə bəyan etməsi bir daha sübuta yetirir ki, Heydər Əliyevin dövlətçilik ideyalarının, Heydər Əliyev yolunun alternativi yoxdur və bu yol xalqımızı yeni-yeni uğurlara, zəfərlərə aparır.

Biz hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Heydər Əliyev irsinə daim sədaqətliyik və bundan sonra da belə olacağıq. Azərbaycan xalqının dahi oğlunun pak əməlləri, müqəddəs ideyaları, arzuları və vəsiyyətləri həmişə yaşayacaqdır. Azərbaycanda ümummilli liderimiz Heydər Əliyevin siyasətinə alternativ yoxdur. Hazırda müstəqil dövlətimiz məhz bu möhkəm təməl üzərində inkişaf edir, möhkəmlənir. Ötən müddət həyata keçirilən və həyatın müxtəlif sahələrini əhatə edən mühüm dövlət proqramları, siyasi və iqtisadi islahatlar öz bəhrəsini verməkdədir.

Azərbaycanın bütün uğurları dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Odur ki, Heydər Əliyev adı əbədi olaraq Azərbaycanın adı ilə yanaşı olacaqdır. Qəlbi həmişə Azərbaycanla döyünmüş ümummilli liderin ideyaları əbədi olaraq yaşayacaq, onun əziz xatirəsi daim anılacaq, yad ediləcəkdir. Bu gün ümummilli liderin davamçısı olan Azərbaycan Prezidenti cənab İlham Əliyev böyük öndərin ideyalarını uğurla və qətiyyətlə həyata keçirir.

**Azad İBRAHİMOV,**
**"ANT-İNŞAAT və TƏMİR-TİKİNTİ"**
**MMC-nin baş direktoru.**